# "İntihar"ı oxu və düşün

*(Yazıçı-publisist Qafar Cəfərlinin "İntihar" hekayəsi barədə düşüncələr)*

**İntihar! Amansızlıq və dəhşətiylə üşüdür canı Dondurur, buzlaşdırır damarlarda qanı. Tarıma çəkir əsəbləri. Dağ selidir çağladır qəzəbləri. Zəlzələdir kükrədir nifrətləri. Lənət yağdırır rəzalətlərə. Etirazdır sosial-iqtisadi, əxlaqi-mənəvi məşəqqətlərə. Şallaqdır-şapalaqdır mühitin bozarmaz - qızarmaz üzlərinə. Oxdur, nizədir batır zamanın kor olmuş gözlərinə. İttiham edir, vicdan məhkəməsinə çəkir yurddaşlara biganələri. Tutub yaxasından silkələyir pul-paraya, mal-mülkə, şan-şöhrətə divanələri. Mərhəmətə - insafa çağırır xalqın canına daraşan, millətin qanını soran və sorduqca doymayan ikiayaqlı bit-birələri, qırxbuğumlu parazit gənələri.**

İnsan cəmiyyətilə yaşıddır intihar. İntihardan yan keçməyib nə millətlər, nə xalqlar, nə haqlar, nə nahaqlar. İntihar ediblər özlərinə adlı-sanlı şahlar və sultanlar. Ömürlərini intiharda nöqtələyiblər yerə-göyə hökm edən imperator və xaqanlar. Özlərinə qəsd ediblər böyük elm və sənət adamları - filosof və alimlər, şair və yazıçılar, rəssam və bəstəkarlar, siyasi və hərbi xadimlər, habelə ən sıravi vətəndaşlar.

Belə ki, antik yunan şairəsi Sapfo sevdiyi gənc qayıqçı Faondan razılıq cavabı almadığına görə özünü qayadan dənizə ataraq boğmamışdırmı?! Antik dövrdə Neronun hakimiyyəti illərində yazıb-yaradan Roma yazıçısı Petroni saray intriqalarına etiraz edərək şah damarını doğramamışdımı? Antik dövrün öncül mütəfəkkirlərindən Sokrat tələbələrilə son görüşündə "Ya həqiqəti öldürüb özümü yaşatmalıyam, ya da özümü öldürüb həqiqəti yaşatmalıyam", - deyərək zəhər dolu piyaləni həqiqətin şərəfinə başına çəkmədimi?! Böyük Azərbaycan filosofu Heydər Hüseynov siyasi hoqqabazlığın qara niyyətlərinə protesto olaraq damarını kəsib al qanına boyanmadımı?! İstedadlı şairimiz Əliağa Kürçaylının qızı Ülkər Kürçaylı ata ölümünə dözməyərək özünü intiharın qurd ağzına atmadımı?! Rus yazıçılarından A.N.Radişşevi, S.Yesenini, V.V. Mayakovskini, A.Fadeyevi ... intiharın qara əlləri boğub-öldürmədimi?!

Dünya ədəbiyyatında intiharçı obrazlar nə qədər desən var. Sofoklun "Tiran Edip" əsərindəki İokasta, "Antiqona"dakı Evridika, V.Şekspirin "Hamlet"indəki Ofeliya, V.Hüqonun "Səfillər" romanındakı polis müfəttişi Javer, "Doxsan üçüncü il" romanındakı Simurden ... obrazları intiharın məcburi qurbanları, intiharın gözəgörünməz dəmir barmaqları arasında həyatları söndürülmüş faci qəhrəmanlardır.

İntiharın məşum-heybətli kölgəsi, sehri-cazibəsi Azərbaycan ədəbiyyatından da sükutla keçməmişdir. İntihar N.Gəncəvinin "Xosrov və Şirin" poemasından Şirin və Fərhadı - bu iki məhəbbət cütlüyünü özünün soyuq ağuşuna çəkmədimi?! İntihar C.Cabbarlının "Aydın" dramındakı Gültəkinin eşq-məhəbbət bağçasında qara tikanlar bitirmədimi?! İntihar - o ölümlər carçısı S.Vurğunun "Vaqif" pyesindəki Xuramanı dəbdəbəli - təmtəraqlı məişətindən qorxunc dərələrin qurd ağzına atmadımı?! Məgər S.Vurğunun "Komsomol poeması"ndakı Gəray bəy qızı Humay intiharın qucağında Kürün boz-bulanıq sularında qərq olub batmadımı?! Xalq şairi Məmməd Rahimin "Ögey ana" poemasındakı Gülər qızcığazı "şirin-şəkər" dilli intihar yandırıb külünü göylərin yeddi qatına almadımı?!

**Adlarını çəkdiyim bədii obrazlar müxtəlif xalqlara mənsub olduqları kimi, intihar səbəbləri də, intihar anatomiyaları da müxtəlif və rəngarəngdir - kimi uğursuz məhəbbətinə rəğmən intiharı seçib, kimi mali bərabərsizliyə görə, kimi zamanla mübarizədə intihara basılıb, kimi də sosial ədalətsizliyə görə intihardan asıb, kimi oğurluğa, kimi dələduzluğa görə...**

İntihar hər hansı bir zəmində , hər hansı sferada baş verirsə - versin, yolverilməz və qəbuledilməzdir. Bu, Allaha müharibədir, Allahın ən böyük və ən kamil əsəri insana qəsddir, zorakılıq və işgəncədir. Ruh insana Allah əmanətidir, intihar isə əmanətə xəyanətdir. Şair demişkən:

Ruh Allahın şəxsi mülkü,
O, insana əmanətdir.
İntihar Allaha üsyan,
Əmanətə xəyanətdir.

Dünyanın yaxın-uzaq ölkələrində bu gün də eşidilməkdədir intiharın məhvedici addımları. Bu gözəgörünməz azman addımlar əzir laydivar oğulları, xışmalayır müstəmləkə ölkələrdə köləleri - qulları. Bu addımlar qəbrə quylayır bir qarın çörəyə möhtacları, özünəqəsdə səfərbər edir dilənçi və acları. İntihar hətta qaziləri belə yaxalayır. Son qoyur bu Vətən fədailərinin, bu Vətən xilaskarlarının həyatına. Düşmənin sarsıtmadığı bu məğrurları, bu qürurluları intihar elə sarsıdır, elə çapıb-talayır, elə məğlubiyyətə uğradır ki, bu zavallıların nə səsi gəlir, nə də



Qafar Cəfərli

sorağı. O ağır anda, o dar məqamda heç nə, heç şey görünmür qazilərin gözlərinə. Onlar yalnız eşqlə-ürəklə möhkəm-möhkəm sıxır köksünə ömürkəsən intihar adlı o nəfəstəngidən zəhərli məbudu.

İstedadlı yazıçı Qafar Cəfərli elə "İntihar" hekayəsində də bir qazinin intihar aktını, intiharla savaş-dalaşını inikas etdirir. Bu inikas, bu təhkiyə belə bir fikrin doğruluğuna oxucuda əmin-yəminlik oyadır ki, heç bir ağıllı şəxs (fərd) ölümünün - intiharının müqəssiri ola bilməz, intiharçı öz həyatına səbəbsiz qəsd etməz intihara şəxsi (fərdi) vadar edən köklü səbəb (səbəblər) olmasa. İntihar səbəb yox, səbəbin (səbəblərin) nəticəsi, səbəblərin yekunudur. Səbəblər isə çoxdur, fəqət bu səbəbləri aradan qaldıran, kökünü kəsən bir kimsə yoxdur.

**"İntihar"ın qısa, yığcam süjeti, kompozisiyası var. II Qarabağ savaşından qayıdan bir Qazinin arxa cəbhədə üzləşdiyi biganəlik, laqeydlik iztirab və sarsıntılar yaşadır Qaziyə. Sosial durumunu, maddi sıxıntılarını nisbətən aradan qaldırmaq üçün Qazi kimlərə üz tutmur, hansı səlahiyyətlilərin qapısını döymür. Hara gedirsə, əyni qalın, beyni yalın məmurlar Qazinin ağzından vurub geri qaytarırlar. Ümidi-gümanı hər yerdən, hər kəsdən üzülən Qazi intiharı seçir.**

Hekayənin süjetini iki obrazın xəyali dialoqu-mükaliməsi təşkil edir. Obrazlardan biri müharibədən yarımcan qayıtmış Qazi, o biri isə Qazinin cəbhədə şəhid olmuş Komandiridir - komandirin xəyali səsidir, komandirin teyfidir. Hekayənin məğzi elə bu iki obrazın dialoqundadır. İlgək boğazında tut ağacından asılmış Qazi sanki qeybdən gələn nagahan səsdən ("Əsgər, daha məni eşitmirsən? Yoxsa məni tanımaq istəmirsən? Mənəm, komandirinəm. Axı hamınız mənə "qoruyucu mələk" deyirdiniz. Gəlişim səni niyə bu qədər təəccübləndirir?) bir anlıq duruxur. Səs zəhmli olduğu qədər də doğma və munis idi. Qazi hardasa haçansa bu səsi eşitmişdi, amma harada eşitdiyini kəsdirə bilmirdi. Dialoq davam etdikcə keçmiş cəbhə xatirələri, döyüş əməliyyatları çözüldükcə Qazi səs sahibini - öz sabiq komutanı Hikmət abini tanıyır. Qazi komutandan kömək gözləyirmiş kimi utanmadan - çəkinmədən arxa cəbhədə başına gətirilənlərdən, xüsusən məmurların biganəlik - laqeydliklərindən, qazilərə hörmətsizliklərindən, özbaşınalıqlarından yana-yana komutana danışır: "...qanıbir - canıbir Vətən oğlu ilə qarşı - qarşıyam. İlk əvvəllər biz qazilərə hörmətlə yanaşılsa da, sonralar sanki hər şey unuduldu. Məmurlar istədiklərini edirlər. Bu ölkədə onlarla bacarmaq sanki müşkül bir işdir. Mən bu vəziyyətimlə barışa bilmirəm... Sındım, komandir, sındım bu şərəfsiz, vətənsiz, Allahsız bəndələrin qarşısında".

Erməni faşizmini sındıran, erməni faşizmini Vətənin bağrından qəlpə-qəlpə qoparan Qazi sındırıldı bizim məmurların soyuqqanlılığından, bizim məmurların milli qürursuzluq və şərəfsizliyindən. Bu tip məmurlar bir deyil, iki deyil, sürü-sürü, naxır-naxırdır. Çölləri parıl-parıl olsa da, içləri paxır-paxırdır. Bunların yaramazlığını, simasızlığını, xalqa-millətə ögeyliyini oxucu hiss etdikcə (gördükcə) içində nifrət kükrəyir, qəzəb ləngərlənir və istər-istəməz oxucu kimdənsə eşitdiyi bir beyti öz-özünə pıçıldayır: Varmı məmləkətdə elə bir məmur/ Xalqına yaşatsın iftixar-qürur?! Eyni zamanda bu da oxucu beynindən keçir ki, ön cəbhədə "qoruyucu mələk" (mələklər) olduğu kimi, bəs arxa cəbhədə bu cür mələk (mələklər) gərək nə üçün olmasın?! Oxucu təəssüflənir ki, arxa cəbhənin səngərlərində (kabinetlərdə) mələklər yox, kələklər keşik çəkir, həm də öz xeyirlərinə.

**Komutan əsgərin "Sındım" sözündən məyuslaşır, bu sözün əsgərə, həm də möhtəşəm Zəfər qazanmış bir ordunun, onun Ali Baş Komandanının əsgərinə yaraşmadığını bir iftixar duyğusu ilə bəyan edir: "-Sındım nə demək, əsgər? Bu sözü dilinə necə yaraşdırdın? Sən möhtəşəm Zəfər qazanmış bir ordunun, onun Ali Baş Komandanının əsgərisən. Olmaz bu cür danışmaq".**

Hekayədən açıq-aydın görünür ki, Qazi Ali Baş Komandana sonsuz məhəbbətli-sədaqətlidir, qayğılı-sayğılıdır. Düşdüyü kritik-fəci situasiyanı Komandana çatdırmaq istəyir. Lakin bu fikrindən daşınır. O gözəl bilir ki, bu qat-qarış zamanda Ali Baş Komandanın taleyüklü işləri onsuz da başından aşır: "...bir tərəfdən dığalarla sarıqulaqların torpağımızda ardı-arası kəsilməyən bədxah əməlləri, digər tərəfdən isə xaricdən bizə qıcanmış düşmənlərimiz. Hələ daşıdaş üstə qalmayan azad olmuş torpaqların bərpasını demirəm. Qudurmuş məmurlar da bunu fürsət bilib bildiklərini edirlər. Yəqin ki, Dəmir Yumruğu onlara da göstərməyin vaxtı çatıb". Oxucu bu nöqtədə Qazi ilə razılaşır. Məmurlar baxırlar bir yumruqlarına, bir də özlərinə, böyük, həşəmətli görünürlər gözlərinə. Öz yumruqlarını sayırlar batman, özlərini ataman... Amma burnundan uzağı görməyən bu cırtdan "padşahlar" fəhm etmirlər ki, həmin Dəmir Yumruğun komandası ilə bir gün xalq düyünlər yumruğunu, elə vurar, elə vurar lap dibindən yerə salar məmurların quyruğunu.

Yazıçı Qafarın bizə təqdim etdiyi Qazi ölüm-dirim dəqiqələrini yaşayarkən belə, uğurlu döyüş əməliyyatlarını, bu əməliyyatları yüksək hərbi peşəkarlıqla reallaşdıran döyüşçü silahdaşlarını və onların fədakarlıqlarını bir-bir xatırlayır, yad edir. Qazinin yaddaş güzgüsündə aynalanır habelə əsgərlərin əlbəyaxa döyüşlə Şuşanı qəhrəmanlıqla necə xilas etməsi, "erməni köpəyuşaqlarının" silahlarını buraxıb dovşan kimi qaçması və əsgərlərin Şuşanın saf-pak, təmiz-şəffaf havasını acgözlüklə ciyərlərinə çəkməsi. Qazi intihara gedərkən Şuşanı xilasda şəhid olan cəbhədaşlarını da bir-bir ehtiramla xatırlayır, muqəddəs ruhların önündə baş əyir. Bu xatırlamalar, bu yadetmələr Qazi ömürlüyünün saralmaz - pozulmaz naxışnəqşələridir: "Azad olan torpağa ayaq basdıqca... elə bilirdik hər birimiz bu torpaqda doğulmuşduq, anamız bizə orada layla çalmışdı. Doğrudan da, Vətən torpağının o baş-bu başı olmazmış.... Vətən torpağında gəzməyin nə böyük səadət olduğunu mən orda anladım".



*(Ardı var)*

**Musa XANBABAZADƏ,**
**filoloq - ədəbiyyatşünas**

Azad Azərbaycan.- 2023- cü il.- 8 iyun.- S. 4.